**_Azərbaycanın çağdaş tarixi dünya şöhrətli siyasətçi, dövlət xadimi, Ümummilli Lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. "Meliorasiya və su təsərrüfatı obyektləri bizim sərvətimizdir və bu sərvətdən səmərəli istifadə etməliyik" sözlərini tarixə yazmış Ulu Öndər Azərbaycanın meliorasiya və su təsərrüfatı kompleksinin yaradıcısı, müəllifi və təşkilatçısıdır._**



# HEYDƏR ƏLİYEV "MELİORASİYA VƏ SU TƏSƏRRÜFATI OBYEKTLƏRİ BİZİM SƏRVƏTİMİZDİR..."

Ümummilli Lider Heydər Əliyevin respublikamıza ilk dəfə rəhbərlik etdiyi 1969-1982-ci illərdə meliorasiya və su təsərrüfatı kompleksinə 2 milyard manatdan artıq vəsait yönəldildi ki, bu da sovet hakimiyyəti dövrünün 50 ili ərzində bu sahəyə qoyulan vəsaitdən 2 dəfədən çox idi. Həmin vəsaitlər hesabına 200 min hektara yaxın yeni suvarılan torpaqlar kənd təsərrüfatı dövriyyəsinə cəlb edilmiş, 400 min hektara yaxın suvarılan torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılmış, 825 min hektar sahədə suvarma sistemləri yenidən qurularaq onların su təminatı artırılmış, 460 min hektar sahədə əsaslı hamarlama və 150 min hektara yaxın sahədə əsaslı yuma işləri aparılmış, texniki cəhətdən mükəmməl irriqasiya və meliorasiya sistemləri yaradılmışdır.

Ulu Öndər keçmiş ittifaq rəhbərliyində olarkən belə, iqtisadiyyatın bütün sahələrində olduğu kimi, meliorasiya və su təsərrüfatı sahəsinə də öz qayğısını əsirgəmir, bu sahədə işlərin gedişinə daim nəzarət edir və lazımi kömək göstərirdi. Faktlara nəzər salaq: 1983-cü ildə kənd təsərrüfatında faktiki istifadə olunan suvarılan torpaqların sahəsi 1970-ci ildəkinə nisbətən 265,1 min hektar artmış, eyni zamanda istifadə olunmayan suvarılan torpaqların sahəsi 89,7 min hektara qədər azalmışdır.

Təəssüflə qeyd edək ki, 1987-ci ildən sonra respublikanın iqtisadiyyatında yaranmış ağır vəziyyətlə əlaqədar büdcə vəsaitinin çatışmazlığına görə dövlət əhəmiyyətli sistemlərin istismarında ciddi çətinliklər yarandı, bir sıra mühüm əhəmiyyətli su təsərrüfatı kompleksləri qəza vəziyyətinə düşdü. Tikinti işləri demək olar ki, dayandırıldı. Meliorasiya və su təsərrüfatının maddi-texniki bazası da xeyli zəiflədi. 1990-1993-cü illərdə isə ölkəmizdə siyasi hərc-mərcliyin, məmləkəti təhdid edən təhlükələrin sonu görünmürdü.

Xalqın təkid və tələbiylə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev böyük dövlətçilik təfəkkürü ilə Azərbaycanda cövlan edən mürəkkəb prosesləri təhlil edir, məmləkətin taleyinin xilası yolunda siyasi iradə nümayiş etdirir, qəti addımlar atırdı. 1993-cü ildə "Ostankino" televiziyasına müsahibə verən Heydər Əliyev "Ölkənin gələcəyini necə görürsünüz" sualının cavabında demişdi: "Azərbaycan müstəqil dövlətdir və indən belə heç vaxt hər hansı başqa dövlətin tərkibinə daxil olmamalı, kiminsə vassalı, yaxud müstəmləkəsi olmamalıdır... Mən Azərbaycanı gələcəkdə azad, müstəqil dövlət kimi görürəm".

Heydər Əliyevin 2 mart 1995-ci il tarixli fərmanı meliorasiya və su təsərrüfatında aparılacaq islahatların sürətləndirilməsinə böyük təkan verdi və bunun əsasında islahatlarla bağlı hazırlanacaq normativ-hüquqi sənədlərin siyahısı təsdiq olundu. Ardınca aqrar islahatın qanunvericilik bazasının tamamlanması, "Torpaq islahatı haqqında" qanunda nəzərdə tutulmuş məqsədə nail olmaq üçün zəmin yaradılması sahəsində "Meliorasiya və irriqasiya haqqında" qanunu və onun təbiq edilməsi barədə Heydər Əliyevin fərmanı mühüm addım oldu. Daha sonra ölkədə su münasibətlərini tənzimləmək məqsədilə "Azərbaycan Respublikasının Su Məcəlləsi" haqqında qanun qəbul olundu.

Ümummilli Lider Heydər Əliyevə islam dünyasının böyük hörmətinin və ehtiramının rəmzi olaraq İslam İnkişaf Bankının rəhbərliyi Baş Mil-Muğan kollektorunun tikintisinin davam etdirilməsinə güzəştli kredit, Samur-Abşeron suvarma sisteminin yenidən qurulması sxeminin hazırlanmasına əvəzsiz olaraq vəsait ayırdı. İslam İnkişaf Bankının krediti və respublika büdcəsindən ayrılan vəsait hesabına 1998-ci ildə kollektorun tikintisinin davam etdirilməsinə başlanıldı və 2000-ci ilin noyabr ayında kollektorun 52,7 kilometr uzunluğunda 2-ci buraxılış kompleksinin tikintisi yüksək keyfiyyətlə başa çatdırılaraq istismara qəbul olundu. Bunun ardınca Dünya Bankının krediti ilə 2003-cü ildə Baş Mil-Muğan kollektorunun 28,5 kilometr uzunluğunda 3-cü buraxılış kompleksinin tikintisinə başlanıldı. Baş Mil-Muğan kollektorunun istismara verilməsi 500 min hektar suvarılan torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılmasına və onun əhatə etdiyi ərazidə kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına şərait yaratdı.

Samur-Abşeron suvarma sistemi ölkəmizin şimal bölgəsinin, eləcə də Bakı-Sumqayıt şəhərlərinin və Abşeron yarımadasının yaşayış məntəqələrini, kənd təsərrüfatı və sənaye müəssisələrini içməli, suvarma və texniki su ilə təmin edən irimiqyaslı kompleks su təsərrüfatı obyektidir. Hazırda bu sistem respublikanın şimal bölgəsinin 150 min hektara yaxın torpaq sahəsinin suvarma suyuna, Bakı, Sumqayıt şəhərlərinin, Abşeron yarımadasının içməli, suvarma və texniki suya olan tələbatının 60 faizini təmin edir.

Suya daim artan ehtiyacı ödəmək üçün Samur-Abşeron magistral kanalı uzun müddət ərzində fasiləsiz olaraq, əsaslı təmirə dayanmadan istismar edilirdi. Bunun nəticəsində kanalın beton örtüyü dağılıb hissə-hissə sıradan çıxmış, qurğuların bir hissəsi funksiyasını itirmiş, su itkisi artmışdı. Heydər Əliyevin tapşırığına əsasən bu problemin həlli yolları araşdırıldı və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması ilə bağlı təxirəsalınmaz tədbirlərin işlənib həyata keçirilməsi təklif olundu.

Birinci mərhələdə Samur çayı üzərində baş sugötürücü qurğunun və Samur-Abşeron kanalının Vəlvələçaya qədər olan hissəsinin yenidən qurulması, Xanarx kanalının, Vəlvələçay-Taxtakörpü, Taxtakörpü-Ceyranbatan kanallarının və Taxtakörpü su anbarının tikintisi nəzərdə tutulurdu. İqtisadi səmərəlilik baxımından bu layihə çox sərfəli idi. Təkçə suyun öz axını ilə Ceyranbatan gölünə ötürülməsi nəticəsində Sitalçay və Ceyranbatan nasos stansiyalarının ləğv edilməsi ilə ildə 167 milyon kilovat/saat elektrik enerjisinə qənaət edilməsi mümkün olacaqdı.

Vayxır su anbarının inşasına isə 1983-cü ildə başlanılmış, lakin 1995-ci ildən maliyyə vəsaitinin olmadığı üçün tikinti işləri dayandırılmışdı. Heydər Əliyevin 2002-ci ildə Naxçıvan Muxtar Respublikasında olarkən su anbarının istismara verilməsi barədə göstərişindən sonra dövlət büdcəsindən ayrılmış vəsait hesabına Türkiyənin tikinti şirkətləri tərəfindən bu obyektin tikintisi başa çatdırıldı.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısında ən böyük tarixi xidmətlərindən biri də dünyanı bürümüş iqtisadi böhranların, münaqişələrin hökm sürdüyü çətin bir şəraitdə əsasını qoyduğu uğurlu inkişaf strategiyasını davam etdirmək kimi çox böyük məsuliyyətli və taleyüklü vəzifəni şərəflə irəli aparmaq üçün dövlət idarəçiliyi təfəkkürünə malik İlham Əliyevə etibar etməsi oldu. Prezident İlham Əliyevin rəhbərliyi altında son 15 il ərzində ölkəmiz böyük inkişaf yolu keçmişdir. Azərbaycan bütün sahələrdə yüksək uğurlara imza atmışdır. İqtisadiyyatımızın aparıcı sahələrindən olan meliorasiya və su təsərrüfatı sistemi də qazanılmış nailiyyətlərdə öz yeri və payı olan sahəyə, genişmiqyaslı islahatların ünvanına çevrilmişdir. 2004-2018-ci illərdə bütün maliyyə mənbələri hesabına 4,2 min kilometr uzunluğunda suvarma kanalları, 2,8 min kilometr uzunluğunda kollektor-drenaj şəbəkələri tikilmiş, 413 min hektar sahədə torpaqların su təminatının və 264 min hektar sahədə meliorativ vəziyyətinin yaxşılaşdırılması işləri yerinə yetirilmiş, 166 min hektar yeni suvarılan torpaq sahələri əkin dövriyyəsinə daxil edilmişdir. Mövcud torpaq mühafizə bəndlərinin 800 kilometrdən artıq hissəsi əsaslı surətdə möhkəmləndirilmiş, çaylarda sel və daşqınlara qarşı 187 kilometrdən artıq mühafizə tədbirləri həyata keçirilmiş, əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 2273 subartezian quyusu qazılmışdır. Bunlardan əlavə, Taxtakörpü, Şəmkirçay, Tovuzçay, Göytəpə su anbarları tikilmiş, Pirsaatçay, Zoğalavaçay, Ləvain su anbarları təmir-bərpa edilmişdir. Ölkədə pambıqçılığın, taxılçılığın, baramaçılığın, tütünçülüyün, üzümçülüyün, sitrus meyvələrinin və digər kənd təsərrüfatı məhsulları istehsalının inkişafı ilə əlaqədar təsdiq edilmiş, regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında, kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində meliorasiya və su təsərrüfatı sahəsi üzrə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi ölkə əhalisinin daxili istehsal hesabına ərzaq məhsulları ilə etibarlı təminatına, sel və daşqın sularının zərərli təsirlərindən mühafizəsinə, çayların su ehtiyatlarından daha səmərəli istifadə edilməsinə imkanlar yaradacaq.

Bütün bunlar o deməkdir ki, Heydər Əliyevin müəyyənləşdirdiyi strateji inkişaf kursu Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük əzmlə, uğurla davam etdirilir və öz bəhrəsini verir.

**_Ruslan Behbudov,_**
**_Nərimanov rayon Sukanal_**
**_İdarəsinin rəisi_**

# QAREGİN ƏSL ERMƏNİ FAŞİSTİ OLUB

## Гарегин Нжде: миф и реальность

**_Oxucularımıza təqdim etdiyimiz bu kitabın müəllifi rusiyalı araşdırmaçı publisist Modest Kolerovdur. Onun ermənilərin "milli qəhrəmanı", faşist xislətli Njde Qaragenin fəaliyyətində yeni arxiv sənədlərin aşkar edilərək kitab şəklində dünya ictimaiyyətinə çatdırması bir daha sübut edir ki, faşizmə barışmayan dünya erməni xislətini də tanımalı, mübarizə sürətlə davam etməlidir._**

*(Əvvəli ötən sayımızda)*


Модест Колеров

Был ли Нжде признан в СССР гитлеровцем? Да!

Архивные материалы

Протокол допроса 12 октября 1944

Повестка к заседанию Особого Совещания при Министре Государственной Безопасности СССР.

"Из письма моей жены стало очевидно, что ваш человек внушил ей не веру в то, что я жив, а ужас. Ей сообщили, что я жив, и в то же время предупредили, чтобы она никому об этом не говорила. Не значит ли это, что я по меньшей мере нахожусь в ужасном положении и что, если даже и жив, то обречен на нечеловеческое существование. Это значит дать понять моему невинному ребенку, что меня третируют и унижают как человека, о существовании которого запрещено говорить. История человечества еще не знает случая, когда бы человек находился в таких условиях, в каких нахожусь я..."46.

Только он, конечно, исключительный, как всегда, единственный "в истории человечества"...

А вот Деведжяну не повезло, выяснилось, что его жена и две дочери уже покинули Румынию, отправились за океан, в далёкую Аргентину, и по этой причине привести от них письмо было невозможно. Ещё хорошо, что Деведжян не требует от чекистов отправиться в Аргентину, чтобы доставить письмо, не поднимает шума против "неслыханной, невиданной и невообразимой в истории несправедливости". Вероятно, приходит в голову, что лелеять надежду оказаться "в истории человечества" в случае с его незначительной личностью будет смешной легкомысленностью. Ибо судьбы скупое провиденье уже раз и навсегда исполнило его, "несравненного и единственного", не подлежащий пересмотру выбор...

Нжде в письме Ворошилову выражает надежду, что времена и методы Берии уже в прошлом "...и ныне, когда великим союзом народов руководят истинные ученики Ленина, хочу верить, что голос заживо похороненного патриота достигнет его семьи". И это "подделали"? Удивительно, что попавшие впросак из-за своего неоспоримого творческого таланта следователи после всего этого не "подделали" заявление от имени Нжде с настойчивой просьбой принять его в ряды ленинской партии. Затем Нжде просит, учитывая его "исключительную судьбу" и разрушенное здоровье, пересмотреть его дело внеочередным порядком. Правда, он так и не поясняет, в чём именно выражается "исключительность его судьбы", возможно, думая, что это должно быть само собой понятно для Ворошилова? Словом, скажем только, что советское правительство, по-видимому, было менее впечатлено "исключительной судьбой" Нжде, чем он сам. Его просьба о пересмотре дела отклоняется.

Как было сказано, Нжде на протяжении более чем десяти лет тюремного заключения непосредственно не подвергался истязаниям и пыткам, если слово "пытка" понимать только в физическом смысле.

***(Davamı gələn sayımızda)***



**_Salman Məmmədoğlu_**

# SEYİD VƏ FATİMƏ

**_ROMAN_**
**_I hissə_**

## II FƏSİL

## SEYİD MƏSKƏN SALIR

*(Əvvəli ötən sayımızda)*

Seyid bazarda biri erkək, digəri dişi olmaqla iki qoyun da almışdı, komasının yanında pəyə də düzəltmişdi, kifayət qədər yem qurudub içəri daşımışdı. Hələ ki, qoyunları çəmənlikdə otarmaqla doyuzdurur, axşama yaxın içəri salırdı. Heyvanlara qulluq etməyi atasından öyrənmişdi, xüsusilə atlar haqqında maraqlı fikirlərini yadda saxlamışdı: "Adamın və atın xüsusiyyəti eynidir. Yaxşı adama, yaxşı ata nə qədər qiymət qoysan layiqdir. Məsəl var deyərlər: "Atını və paltarını yaxşı saxla, at və paltar da səni yaxşı saxlar". Baytarların dediyinə görə, atın dişləri nazik, sıx və ağ, alt dodağı nisbətən uzun, burnu dik, enli və uca, alnı geniş, qulaq boşluqları hamar, qulaqları dik və düz, boynu dik, sıx və nazik, aşağı hissəsi, yalı uzun, döşü geniş, əllərinin və ayaqlarının hər iki tərəfi ətli olmalıdır. Heyvan, torpaq, mülk, hər nə alsan, sağ olduqca özün xeyir götürə bilərsən, səndən sonra isə arvad-uşaq və övladların.

Böyük Yaradan bu dünyanı məqsədlə yaratmış, onu ədalət və hikmət əsasında qurmuşdur, çünki o, varlığın yoxluqdan, xeyirin şərdən, bolluğun qıtlıqdan, gözəlliyin eybəcərlikdən daha yaxşı olduğunu bilirdi. O, edə bilərdi ki, günəşsiz işıq versin, buludsuz yağış yağdırsın və s. O, səbəbsiz olaraq heç bir şey yaratmadı, insanları yaratdı ki, onlara ruzi versin, insanları yaradıbsa, demək bütün nemətlər onlarındır. Lakin insanlar qayda-qanunsuz və rəhbərsiz keçinə bilməzlər. O, peyğəmbərlər göndərdi ki, Quranda deyildiyi kimi, onların bilmədiklərini öyrətsin. İnsanlar ruzi verənə minnətdar olmalıdırlar, peyğəmbərlərin haqq olduğuna inanmalı, onlardan kömək ummalıdırlar. Adəmdən tutmuş Məhəmmədə qədər bütün peyğəmbərlər duz danışan olublar. Namaz və Oruc Allaha xasdır, şəriət sahibi namazı bütün dinə bərabər hesab etmişdir. Oruc ildə bir dəfə edilən itaətdir, onu yerinə yetirməmək insafsızlıqdır".

Seyidin özü də insanların nə üçün varlı və kasıb təbəqəyə bölündüklərini təhlil edib anlamağa çalışır, bu haqda yaranan hədis və əhvalatları yadına salıb xəyallar aləminə qərq olurdu. Mədrəsədə molladan eşitdiyi bir əhvalat yadına düşdü: Bir dəfə çox varlı Buxara Əmiri bəzəkli kəcavədə oturub səhrada yırğalana - yırğalana, xumarlana-xumarlana Həcc ziyarətinə gedirdi. Yüzdən artıq dəvəsi, mal-dövləti vardı. Onun kimi varlılarla yanaşı, yoxsullar dəstəsi də Həcc ziyarətinə hərəkət edirdi. Ərəfata çatanda ayaqyalın, ac-susuz, ayaqları qabar salmış bir dərviş əmiri o vəziyyətdə görüb deyir: "Qiyamətdə səninlə mənim mükafatım eyni olacaq, ancaq sən naz-nemət içində gedirsən, mən isə əzab-əziyyət içərisində. Buxara əmiri cavab verir ki, mən bilsəydim ki, bizim mükafatımız eyni olacaq, səhraya ayaq basmazdım. Dərviş səbəbini soruşanda əmir "Mən Allah-taalanın buyuruğu ilə, sən isə onun əmrinə müxalif hərəkət etmisən, məni çağırıblar, mən qonağam, sən isə tufeyli. Çağrılmamış qonaqla çağırılmış qonağın hörməti eyni ola bilərmi?" - deyir.

Seyid oxuduqlarını və gördüklərini həyatda qarşıladığı hadisələrlə müqayisə edərək, çox böyük ictimai ədalətsizliklərin baş verdiyini, özünün də bu hadisələrlə qarşılaşacağını yaxşı dərk edirdi, "niyə belə olur", "nə üçün belə edirlər və işin olmasın" fikirləri ilə hələlik barışmalı olurdu.

Oktyabr ayı yetişəndə havalar soyuq və yağışlı keçməyə başladı, günəş şüaları zəiflədi. Seyid komada öz kiçik təsərrüfatını səhmana salmaqla məşğul olur, qoyunları yemləyir, Ovçu və Alabaşa (o, itlərə belə adlar qoymuşdu) saatlarla təlimlər keçirdi. Aşıladığı yeni vərdişlərlə çalışırdı ki, dostları onu başa düşə bilsinlər.

Yay aylarında Seyid tənbəllik etməmişdi, qum, gil və palçıqdan çoxlu kərpic hazırlayıb komaya daşımışdı, özünə soba qayırmışdı. Komanım içəri tərəfindən kərpicləri düzərək bütün dəlmə-deşikləri tutmuşdu, kərpiclərin üstünü palçıqla suvamışdı. İndi onun ocaq qalaması, su qızdırması, yemək hazırlaması üçün hər cür şəraiti vardı. Ocağın tüstüsü kərpicdən hördüyü buxarı vasitəsilə bayıra çıxırdı. Dalbadal üç gün üç gecə yağış yağdı, göy gurultusundan qulaq tutulur, yer-göy titrəyirdi, şimşəyin parıltısında bütün aləm sanki od tutub yanırdı. Nə yaxşı Seyid bütün ehtiyatını vaxtında görmüşdü, ata və qoyunlara yem ehtiyatı, ocaq qalamağa quru odunu, Alabaş və Ovçuya, həm də özünə kifayət qədər azuqəsi vardı. Qoyunlar pəyədə, atı ləmin altında, Alabaş və Ovçu isə onun yanında - ocağın ətrafında oturub ləzzətlə bişən balıq və ət paylarını gözləyirdilər, Seyid hər birinin payını ayrı-ayrı qablara tökürdü ki, dalaşmasınlar...

Nəhayət, dördüncü gecə səhərəyaxın yağış dayandı, səhər açılanda Seyid komadan bayıra çıxdı, ətrafa nəzər saldı, az qaldı ki, qışqırsın: - inanılmaz, lap Nuh əyyamındakı hadisələri öz gözləri ilə görürdü. Sanki bütün dünya su altında qalmışdı, çaydan da əsər-əlamət görünmürdü, onun yerinə əzəmətli bir dəniz əmələ gəlmişdi, yalnız ağac və hündür təpələrin başı gözə çarpırdı. Heyvan və quşlar ya suya qərq olmuş, ya da qaçıb xilas ola bilmişdilər. Dağların yaşıl sinəsindən sisdumn çəkilir, indi onların hündür və əzəmətli döşü lap yaxın və aydın görünürdü. Seyid baş sındırıb aylarla tapa bilmədiyi tapmacanın cavabını




indi tapa bilmişdi: göründüyü kimi, yağış suları çaya sığmır və o, daşıb hər yeri altına alır, bu daşqının qarşısını almaq hələlik insan övladına müyəssər deyil, ancaq ağıl və zəka gec-tez öz sözünü deyəcəkdir. Daşqın qarşısına çıxan hər bir varlığı yuyub aparmış, yalnız Seyidin məskən saldığı hündür yerlərə qalxa bilməmişdi.

Hava açılandan sonra yenidən günəşli günlər davam edirdi, çayın suyu azalmağa, yollar, cığırlar görünməyə və qurumağa başlamışdı. Yağışdan sonra yapışqan torpaqda və sulu gölməçələrdə hərəkət etmək çətinləşmişdi. Seyidin ayaqları islandığından tez-tez tonqalın istisində oturub ayaqlarını isitməli olurdu, indi ona möhkəm ayaqqabılar: su keçirməyən çarıq və çəkmələr lazım idi, növbəti səfəri zamanı bunları Vıjorqodan almalı, qışa hazırlıq işlərini tamamlamalıdır.

Gecəyarısı çaydan eşidilən qorxunc səslər Seyidi daha ehtiyatlı olmağa, komasını tez tikib ətraflarını daha etibarlı və keçilməz etməyə tələsdirirdi. Bəzən ona elə gəlirdi ki, çayda bir dəstə adam çimir, danışır və rəqs ediirlər. Bir müddətdən sonra bu səslər tam kəsilir, ətrafa insanı vahiməyə salan bir sükut çökürdü. Sonra kimsə qəh-qəhə çəkib gülür, fasilələrlə bu gülüş səsləri zarıltı və iniltiyə çevrilirdi. Sanki kimsə başının üstündəki hündür ağaca çıxıb onu izləyir, işıldayan gözlərini ondan çəkməyərək gah gülmək, gah da ağlamaqla onu qorxutmaq istəyirdi.

Sirli və qorxunc aləm nəyin bahasına olursa olsun Seyidi evciyi daha tez tikib qurtarmağa məcbur edirdi...

***(Davamı gələn sayımızda)***